

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 236 (23.147)

*11 dekabr 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Bekir Pakdemirlini kənd təsərrüfatı və meşəçilik naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edərək, onun ilk dəfə nazir kimi Azərbaycana səfərindən məmnunluğunu bildirib. Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu deyib.

Söhbət zamanı kənd təsərrüfatı sahəsində çalışan Azərbaycan və Türkiyə iş adamlarının dekabrın 11-də Bakıda birgə biznes forumunun keçiriləcəyi və bunun əməkdaşlığımızın genişləndirilməsi baxımından əhəmiyyətli olacağı vurğulanıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviçi qəbul edib.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir

Dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" müşavirə keçirilmişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir ki, sağlam cəmiyyət quruculuğunda və gənclərlə işin düzgün təşkilində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Muxtar respublikada idman sahəsi hər zaman diqqətdə saxlanılır, gənclərin idmana və təhsilə cəlbi istiqamətində ardıcıl tədbirlər görülür, hər il bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı müşavirə keçirilir, vəzifələr müəyyənləşdirilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, muxtar respublikada sağlam gənc nəsil yetişir. Gənclər zərərli vərdişlərdən uzaqdır. İdman sahəsində uğurlar qazanılır.

Ali Məclisin Sədri sağlam gənc nəslin hazırlanmasında əməyi olanlara təşəkkür etmişdir.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov bədən tərbiyəsi və idmanın inkişafı sahəsində görülən işlər barədə məlumat verərək demişdir: Naxçıvan Muxtar Respublikasında müasir idman infrastrukturu formalaşdırılmış, uşaq və gənclərin idmanla məşğul olmasına, onların müxtəlif səviyyəli çempionat, turnir və yarışlarda iştirak etməsinə hərtərəfli şərait yaradılmışdır. 2002-ci ildə boks, güləş, karate-do, şahmat, futbol, voleybol, basketbol, yüngül atletika, 2006-cı ildə paralimpiya, 2013-cü ildə atıcılıq, hava və ekstremal idman növləri, 2018-ci ildə kikboksinq federasiyaları yaradılmışdır. Həmçinin bu il muxtar respublikada bir sıra beynəlxalq turnirlər, Azərbaycan çempionatları keçirilmiş, eləcə də idmançılarımızın Azərbaycanda və dünyanın müxtəlif ölkələrində keçirilən yarışlarda iştirakı təmin edilmişdir. Məşqçilərə təlimlər, treninqlər, gənc idmançılara nümunəvi dərslərin keçirilməsi diqqətdə saxlanılmış, bütün idman növləri və federasiyalar üzrə peşəkar və təcrübəli məşqçilər muxtar respublikaya dəvət edilmiş, komandaların təlim-məşq toplanışları keçirilmişdir.

Qeyd olunmuşdur ki, "Vətənin Müdafiəsinə Hazıram" poliatlon çoxnövçülüyü üzrə Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin komandası Xaçmaz rayonunda keçirilən respublika çempionatının final mərhələsində muxtar respublikanı təmsil edərək birinci yerin sahibi olmuşdur. Həm böyüklər, həm gənclər, həm də yeniyetmələr arasında keçirilən bütün yarışlarda nailiyyətlər qazanılıb. 2018-ci ildə muxtar respublika idmançıları Dünya çempionatlarında 2, Avropa çempionatlarında 3, Yeniyetmələrin III Yay Olimpiadasında 1, Beynəlxalq turnirlərdə 84, Azərbaycan birinciliklərində 99 medal qazanmışlar.

Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının idmançısı Nizami Novruzov çıxış edərək demişdir ki, muxtar respublikada müasir idman infrastrukturunun yaradılması gənclərin sağlamlığının qorunmasında, onların asudə vaxtlarının səmərəli təşkilində və istedadlı gənclərin üzə çıxarılmasında mühüm rol oynayır. Yaradılan şərait, göstərilən diqqət və qayğı nəticəsində hazırda muxtar respublikada bütün yaş qrupları üzrə bədən tərbiyəsi və idmanla məşğul olan yeniyetmə və gənclərin sayı günü-gündən artmaqdadır. Olimpiadalarda, digər mötəbər yarışlarda qələbələr qazanan, dünyanın nüfuzlu arenalarında Azərbaycan bayrağının qaldırılmasına, himnimizin səsləndirilməsinə nail olan idmançılar böyük qayğı və diqqətlə əhatə olunurlar. Bu gün idman muxtar respublikamızda dövlət tərəfindən ən çox qayğı ilə əhatə olunmuş sahələrdəndir. Göstərilən diqqətin nəticəsidir ki, idmançılar cəmiyyətin sayılıb-seçilən üzvlərinə çevriliblər. Nizami Novruzov idmanın inkişafı sahəsində həyata keçirilən tədbirlərə görə muxtar respublika idmançıları adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Ölkəmizdə ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan idman siyasətinin davam etdirilməsi nəticəsində müasir idman infrastrukturu formalaşdırılmış, idman sahəsində uğurlara nail olunmuş, Azərbaycan idman ölkəsinə və beynəlxalq yarışların keçirildiyi mərkəzə çevrilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"İdman sağlam həyat tərzidir. İdman gəncləri vətənpərvərlik ruhunda tərbiyə edir. İdman ölkələri dünya miqyasında tanıdır. Əgər biz Olimpiya Oyunlarında yüksək nəticə göstərmiş ölkələrin siyahısına baxsaq görərik ki, onların tam əksəriyyəti inkişaf etmiş ölkələrdir. Yəni, ancaq inkişaf etmiş ölkələrdə idman daha çox inkişaf edə bilər. Azərbaycan da inkişafda olan ölkədir".***

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikasında da əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın roluna böyük əhəmiyyət verilir. Yaradılmış şərait idmanın kütləviliyinə öz təsirini göstərmiş, muxtar respublikamızda müxtəlif beynəlxalq və ölkə səviyyəli yarışlar keçirilmiş, idmançılarımız nüfuzlu beynəlxalq yarışlarda nailiyyətlər qazanmışlar. Bununla yanaşı, uşaq və gənclərin idmana cəlbi istiqamətində də əsaslı işlər görülməkdədir. Hazırda muxtar respublikada idmanla 27 mindən çox uşaq və gənc məşğul olur. Onların 21 min 397-si oğlan, 6002-si isə qızdır. Sağlamlıq imkanları məhdud olan uşaq və gənclərdən də 361-i idmanla məşğul olur. Bədən tərbiyəsi və idmanla məşğul olmaq təkcə yarışlarda iştirak etmək və yüksək nailiyyət əldə etmək məqsədi daşımır, eyni zamanda zərərli vərdişlərin qarşısının alınmasında, əhali sağlamlığının təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Bu xüsusatı əsas götürərək ona nail olmalıyıq ki, muxtar respublikada bədən tərbiyəsi və idman sahəsində yaradılanlardan bütün vətəndaşlar, o cümlədən gənclər səmərəli istifadə edə bilsinlər.

Ali Məclisin Sədri aidiyyəti üzrə tapşırıqlar verərək demişdir ki, Gənclər və İdman Nazirliyi və idman federasiyaları muxtar respublikada idman növlərinin inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, idman yarışlarının kütləviliyinin artırılması sahəsində fəaliyyətlərini gücləndirməli, idmanın müxtəlif növləri üzrə Naxçıvan Muxtar Respublikası birinciliklərinin keçirilməsi davam etdirilməlidir. Muxtar respublikada keçirilən idman yarışları, xüsusən də ölkə və beynəlxalq səviyyəli yarışlar gənc idmançıların təcrübəsinin artırılmasında mühüm rol oynayır. Gənclər və İdman Nazirliyi, idman federasiyaları bu cür idman yarışlarının keçirilməsini davam etdirməlidirlər. Gənclər və İdman Nazirliyi və idman federasiyaları Azərbaycanın iştirak etdiyi beynəlxalq yarışlarda muxtar respublika idmançılarının da iştirakını təmin etməlidir.

Ali Məclisin Sədri demişdir: İdman federasiyaları bölmələrin fəaliyyətlərini gücləndirməli, federasiyadaxili idman yarışları keçirilməlidir. Rayon icra hakimiyyətləri də bu məsələyə diqqəti artırmalı, idman federasiyaları ilə birlikdə rayondaxili və rayonlararası idman yarışlarının keçirilməsi təmin edilməlidir. Peşəkar məşqçilərin hazırlanması və idmançılara məşğələlərin keçirilməsi 2019-cu ildə də Gənclər və İdman Nazirliyi, eləcə də idman federasiyaları tərəfindən davam etdirilməli, muxtar respublikaya təcrübəli məşqçilər dəvət olunmalı, məşqçilərə təlimlərin, idmançılara nümunəvi dərslərin keçirilməsi təmin edilməlidir.

Gənclər və İdman Nazirliyi və idman federasiyaları idmançı gənclərin və məşqçi müəllimlərin sosial problemlərinin həlli üçün zəruri tədbirlər görməlidir. Gənclər və İdman Nazirliyi federasiyalarda olan istedadlı gəncləri hamiliyə götürməlidir. Keçirilən birincilik və yarışlarda yeni istedadlı idmançılar üzə çıxır. İdman federasiyaları federasiya daxilində istedadlı gənclərin məlumat bankının yaradılmasını və hər yarışdan sonra yenilənməsini təmin etməli, Gənclər və İdman Nazirliyi gənc idmançıların elektron məlumat bankının yaradılmasını əlaqələndirməli və Nazirliyin saytında yerləşdirməlidir. Gənclər və İdman Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə məhdud fiziki imkanlı gənclərin muxtar respublikanın

*Ardı 2-ci səhifədə*

idman həyatına daha fəal inteqrasiyası sahəsində tədbirləri davam etdirməli, bədən tərbiyəsi və idmanın bu kateqoriyadan olan şəxslərin reabilitasiyasına təsiri ilə bağlı təbliğat işini gücləndirməlidir.

Müşavirədə mövcud stadionlardan səmərəli istifadə, eyni zamanda yerlərdə stadionların yenidən qurulması işinin davam etdirilməsi şəhər və rayon icra hakimiyyətləri ilə Gənclər və İdman Nazirliyinə tapşırılmışdır. Qeyd olunmuşdur ki, muxtar respublikada yaradılan idman infrastrukturunun, o cümlədən idman obyekt və qurğularının qorunması və onlardan səmərəli istifadə üçün Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, idman federasiyaları, şəhər və rayon icra hakimiyyətləri birgə fəaliyyət göstərməlidirlər. Təhsil Nazirliyi böyüməkdə olan nəslin fiziki inkişafına, onların sağlamlığına qayğı ilə yanaşmalıdır. Ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisinə nəzarət və uşaq-gənclər şahmat və idman məktəblərinin fəaliyyəti gücləndirilməli, idman yarışları və spartakiadalar müvafiq idman federasiyaları ilə birlikdə təşkil edilməlidir.



Ali Məclisin Sədri tapşırmışdır ki, işində nöqsanlara yol verən idman federasiyaları qarşıdakı dövrdə öz fəaliyyətlərində dönüş yaratmalı, idmanın kütləviliyini təmin etmək üçün təbliğat mexanizmi düzgün qurulmalı, muxtar respublikanın kütləvi informasiya vasitələri bununla bağlı tematik materiallar hazırlamalı, bədən tərbiyəsi və idmanın həyat tərzinə çevrilməsinə çalışmalıdırlar. İdman federasiyaları, Gənclər və İdman Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri 2019-cu ildə hər bir şəhər və rayon ərazisində keçiriləcək idman tədbirlərinin planını təsdiq edib, icrasını təmin etsinlər. Bədən tərbiyəsi və idman gənc nəslin yetişdirilməsi sahəsində qarşıda duran vəzifələrin mühüm tərkib hissəsidir. Ona görə də bütün aid təşkilatlar üzərlərinə düşən vəzifələrin məsuliyyətini dərk edərək bədən tərbiyəsi və idmanın hərtərəfli inkişafına nail olmalıdırlar.

Ali Məclisin Sədri qeyd olunan vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri 2018-ci ildə ölkə və beynəlxalq yarışlarda uğurlu nəticələrə görə 7 idmançıya və 4 məşqçi-müəllimə mükafat təqdim etmişdir.

Mükafatlandırılanlardan Şəfi Hüseynov, Şəhriyar Məmmədov və Yasin İbrahimov əməklərinə verilən qiymətə görə minnətdarlıq etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*İcmal*

## Naxçıvan Muxtar Respublikasında əldə olunmuş bütün nailiyyətlərin əsasında ulu öndərimiz Heydər Əliyevin inkişaf konsepsiyası dayanır

### *Həmin nailiyyətlər həm də ən böyük vətənpərvərlik nümunəsidir*

*Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizə çox böyük tarixi nailiyyətlər, uğurlar və tükənməz dövlətçilik təcrübələri – müstəqil Azərbaycan, əbədi azadlıq bəxş edib. Naxçıvan Muxtar Respublikasının bugünkü sürətli sosial-iqtisadi inkişafı, milli-mənəvi və ideoloji dəyərlərimizin ən yüksək səviyyədə yaşadılması, mədəni, elmi, etno-kulturoloji sahələrdə mühüm irəliləyişlərin əldə olunması da Heydər Əliyev siyasi kursuna münasibətdə sözlə əməlin, dərin sədaqətlə konkret işin vəhdətinin canlı örnəyi kimi diqqəti cəlb edir.*

Heydər Əliyev dövlətçilik məktəbinin Naxçıvan modelinin tərkib hissəsi olan inkişaf konsepsiyasının qətiyyətlə həyata keçirilməsi muxtar respublikamızda bütün sahələrdə yeniləşməyə və tərəqqiyə doğru hərəkatın başlıca hərəkətverici qüvvəsinə çevrilib.

Ulu öndərimizin uğurlu yolunun davam etdirilməsi nəticəsində bu gün muxtar respublikada kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi və ixrac imkanlarının yaradılması sahəsində həyata keçirilən ardıcıl tədbirlər davamlı xarakter alıb. Qəbul olunmuş dövlət proqramları kənd təsərrüfatının inkişafına əlavə stimul verib. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin fəaliyyətinin təşkili, bu mənada, xüsusi əhəmiyyət kəsb edir. Noyabrın 1-də – Kənd Təsərrüfatı İşçiləri Günündə "Araz" Elm-İstehsalat Birliyinin, eləcə də Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin yeni inzibati binasının istifadəyə verilməsi bu sahədə yeni-yeni nailiyyətlərin əldə edilməsinə şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov açılış tədbirində iştirak edib. Ali Məclisin Sədri "Araz" Elm-İstehsalat Birliyində Naxçıvan Dövlət Universitetinin müvafiq ixtisasları üzrə təhsil alan tələbələrinin iştirakı ilə təcrübi dərslərin keçilməsi, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar İnstitutu ilə birlikdə yerli və məhsuldar toxum sortlarının bərpası və tətbiqinin davam etdirilməsi, qədim əkinçilik metodlarının elmi şəkildə tətbiqinə başlanılması, birliyin laboratoriyasında torpaq mülkiyyətçilərinə torpaq analizlərinin aparılması üçün lazımi şəraitin yaradılması barədə tapşırıqlar verib.

Artıq 30 ilə yaxındır ki, blokada vəziyyətində yaşayan muxtar respublika üçün hava nəqliyyatının inkişafı böyük əhəmiyyət kəsb edir. Digər tərəfdən coğrafi cəhətdən əlverişli mövqedə yerləşməsi, müasir inkişafı və turizm potensialı qədim diyarımızda hava nəqliyyatına olan tələbatı daha da artırır. Buna görə də bu gün Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazası gücləndirilir, mülki aviasiya sahəsində müasir infrastruktur yaradılır. Görülən tədbirlərin davamı olaraq noyabrın 2-də hava limanına yeni maşın-mexanizmlər və xidməti avtomobillər təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov maşın-mexanizmlərə və xidməti avtomobillərə baxıb, limanın inşası davam etdirilən yeni uçuş-enmə zolağında aparılan tikinti işləri ilə maraqlanıblar.

Ali Məclisin Sədri tikinti işlərinin keyfiyyətlə aparılması, eləcə də aviasiya təhlükəsizliyi ilə bağlı tələblərə əməl edilməsi barədə müvafiq tapşırıqlar verib.

Muxtar respublikada hərtərəfli inkişaf sayəsində xarici ölkələrlə iqtisadi-ticarət, elmi-mədəni, təhsil, hava nəqliyyatı, turizm sahələrində əlaqələrin genişləndirilməsinə hərtərəfli şərait yaradılıb.

Noyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov, noyabrın 12-də Norveç Krallığının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Olav Nils Thue, noyabrın 16-da Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımla, noyabrın 29-da isə Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Uilyam Qil ilə görüşüb.

Muxtar respublikada müxtəlif istiqamətlər üzrə festivalların təşkili davamlı xarakter alıb. Bunlardan biri də "Ailə təsərrüfatı məhsulları" festivallarıdır. Muxtar respublikada ailə təsərrüfatlarının inkişafına hərtərəfli şərait yaradılmasının nəticəsidir ki, hazırda diyarımızda 800-dən çox kiçik və böyük ailə təsərrüfatı mövcuddur.

Noyabrın 10-da "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində növbəti "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib. Festivala muxtar respublikanın bütün rayonlarından olan 319 ailə təsərrüfatı tərəfindən 418 növdə 23 mindən çox qablaşdırılmış məhsul çıxarılmışdı. Builki festivalda ailə təsərrüfatlarının istehsalı olan müxtəlif əl işləri də nümayiş etdirilmişdir.

Ali Məclisin Sədri festivalda iştirak edib, ailə təsərrüfatlarına bundan sonra da dəstək göstərilməsinin vacibliyini bildirib.

Ötən əsrin 90-cı illərinin əvvəllərində ümummilli liderimiz Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər, qəbul olunan qərarlar müstəqil Azərbaycanın əsas inkişaf istiqamətlərini müəyyənləşdirdi. Ulu öndərin rəhbərliyi ilə üçrəngli bayrağımızın Naxçıvanda qaldırılması, muxtar respublikanın adının dəyişdirilməsi, ordu quruculuğuna və iqtisadi islahatlara başlanılması müstəqil dövlətçilik tariximizdə mühüm mərhələ təşkil edir. Həmin dövrdə muxtar respublikada təbiətin qorunması istiqamətində də tədbirlər görülüb, iməciliklər keçirilib, yaşıllıqlar salınıb. Bu gün dahi şəxsiyyətin ideyaları muxtar respublikada uğurla reallaşdırılır, bütün sahələrdə olduğu kimi, ətraf mühitin qorunması istiqamətində də ardıcıl tədbirlər görülür. Noyabrın 17-də – Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günündə muxtar respublikada iməcilik keçirilib.

Ali Məclisin Sədri iməcilikdə iştirak edib, meyvə tingləri əkib, hava şəraitinə uyğun olaraq iməciliklərin davam etdirilməsi, yeni meyvə, xüsusilə üzüm bağlarının salınması və bərpa əkinin aparılması barədə tapşırıqlar verib.

Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində davamlı tədbirlər görülür. Bunun üçün torpaq ehtiyatından səmərəli istifadə olunur, mütərəqqi suvarma metodları tətbiq edilir, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır. Noyabrın 20-də Kəngərli rayonunun Böyükdüz kəndində qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsi də həyata keçirilən tədbirlərin davamıdır. Bununla da 600 hektar torpaq sahəsi yeni əkin dövriyyəsinə qatılıb.

Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib, qapalı suvarma şəbəkəsinin tikintisinin keyfiyyətlə aparılmasında əməyi olanlara təşəkkür edib və onları hədiyyələrlə mükafatlandırıb.

Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsini işə salıb, muxtar respublikada belə şəbəkələrin qurulmasının davam etdirilməsi, toxumçuluq təsərrüfatında "Araz" Elm-İstehsalat Birliyi tərəfindən yeni toxum sortlarının sınaq əkininin aparılması və ərazidə yaşıllıq zolaqlarının salınması barədə tapşırıqlar verib.

Hansı ölkələrdə ki təhsil fəaliyyəti və qurumları üçün kifayət qədər resurs səfərbər edilməyib, həmin ölkələrdə bütün sahələrdə geriləmələr qeydə alınıb. Bu, təhsilin gələcəyimiz baxımından əhəmiyyətli rolunu bir daha ortaya qoyur. Praktik fəaliyyət üçün gərəkli olan biliklərin və müvafiq bacarıq və səriştələrin məcmusu olan təhsilin muxtar respublikanın kənd yaşayış məntəqələrində də inkişafının təmin edilməsi istiqamətində görülən məqsədyönlü işlər böyük önəm kəsb edir. Çünki bu gün muxtar respublikada əhalinin 70 faizi həmin yaşayış məntəqələrində yaşayır. Bu, muxtar respublika rəhbərinin, hətta ən ucqar kəndlərimizdə belə, şagird və müəllimlər üçün hərtərəfli təhsil şəraitinin yaradılması istiqamətində gördüyü işlərin necə böyük bir perspektivə hesablandığını bir daha göstərir.

Noyabrın 21-də – inkişaf, sabitlik və yüksək rifah prinsiplərini fəaliyyətinin əsas istiqamətləri kimi müəyyənləşdirən Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümündə Şərur rayonunun Kosacan kənd tam orta məktəbinin yeni binasının açılışı olub. Ali Məclisin Sədri açılış tədbirində iştirak edib.

Həmin gün Kosacanda yeni kənd və xidmət mərkəzlərinin, kənd avtomobil yolunun istifadəyə verilməsi sakinlər tərəfindən sevinclə qarşılanıb. Bununla Kosacan kəndi müasir yaşayış məntəqələrinin sırasına daxil olub.

Naxçıvanda əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində də ardıcıl tədbirlər görülür. Səhiyyə infrastrukturunun yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması əhalinin bütün təbəqələrinin sağlamlığının qorunması işində əsaslı dönüş yaradıb. Noyabrın 24-də Naxçıvan Muxtar Respublikasının səhiyyə müəssisələrinə 15 təcili tibbi yardım avtomobilinin verilməsi də diyarımızda səhiyyənin inkişafı sahəsində görülən işlərin ardıcıl xarakter daşıdığını göstərir.

Ali Məclisin Sədri muxtar respublikanın səhiyyə işçilərinin yaradılan şəraitdən səmərəli istifadə edəcəklərinə əminliyini bildirib, onlara fəaliyyətlərində uğurlar arzulayıb və təcili tibbi yardım avtomobillərinin açarlarını təqdim edib.

Qədim sivilizasiyanın məkanı olan, bu gün bütün sahələrdə inkişaf edərək Türk dünyasının elm, mədəniyyət və maarifçilik mərkəzinə çevrilən Naxçıvan noyabrın 26-da daha bir ilkə imza atıb – həmin gün Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin ilk forumu keçirilib.

Forumun açılışında iştirak edən Ali Məclisin Sədri Türk Şurası Gənc Liderlərinin Naxçıvan Forumunun bütün iştirakçılarını salamlayıb, forumun işinə uğurlar arzulayıb. Ali Məclisin Sədri deyib: ***"Elm, təhsil və mədəni inkişaf tarixən türk xalqlarını birləşdirib. "Kitabi-Dədə Qorqud" və "Manas" dastanları, Orxon-Yenisey, Qobustan və Gəmiqaya yazılı abidələri türk xalqlarının milli varlığının, təfəkkürünün və birliyinin ifadəsidir. Mövlana Cəlaləddin Rumi, Xoca Əhməd Yasəvi, Baba Nemətullah Naxçıvani kimi görkəmli mütəfəkkirlər ümumtürk mədəniyyətinin möhkəmlənməsinə öz töhfələrini vermişlər. Bu mədəniyyətdə payı olan Naxçıvan coğrafi cəhətdən də türk toplumlarının mərkəzində yerləşir. 2009-cu ildə Türkdilli ölkələrin dövlət başçılarının doqquzuncu zirvə görüşünün, bu gün isə Türk Şurası Gənc Liderlərinin ilk forumunun Naxçıvanda keçirilməsi mərkəz kimi Naxçıvanın əhəmiyyətini daha da artırır".***

Ali Məclisin Sədri bütün bunları nəzərə alaraq Naxçıvanda Türk Universitetinin yaradılması təşəbbüsünü irəli sürüb.

Qeyd edək ki, Türk Şurası Gənc Liderlərinin ilk forumunun Naxçıvanda keçirilməsi mühüm əhəmiyyət daşıyır. Çünki 2009-cu ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının əsası məhz Naxçıvanda qoyulub. Bu il Naxçıvan şəhəri Azərbaycanın Gənclər Paytaxtı, həmçinin İslam Mədəniyyətinin Paytaxtı kimi yüksək statusa malikdir. Qədim diyarda əsası qoyulan bu forum eyni soykökə, ortaq mədəniyyətə və tarixə malik olan türkdilli ölkələrin gəncləri arasında əlaqələrin daha da möhkəmləndirilməsinə və inkişafına geniş imkanlar açır.

Muxtar respublikanın tarixiliyi saxlanılmaqla bütün şəhər, qəsəbə və kəndlərində genişmiqyaslı quruculuq işləri aparılır, müasir infrastruktur qurulur. Culfa rayonunun Qazançı kəndində də müasir infrastruktur yaradılıb, kənd muxtar respublikanın abad yaşayış məntəqələri sırasına daxil olub. Noyabrın 30-da Qazançı kənd tam orta məktəbinin yeni binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, mərasim evi, həmçinin Qazançı körpüsü tarixi-memarlıq abidəsi bərpadan sonra istifadəyə verilib.

Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirlərdə iştirak edib.

*Bu gün muxtar respublikamızda quruculuq və müasirləşmə siyasəti uğurla həyata keçirilir, dayanıqlı sabitlik hökm sürür. İnkişaf və yüksəliş muxtar respublikanın hər bir bölgəsində aydın hiss olunur. Bir ölkənin, diyarın gələcəyi isə onun köklərinə bağlılığı, dahilərinə, tarixi şəxsiyyətlərinə hörmət və ehtiramı, gələcəyə inamı və birliyi ilə birbaşa bağlıdır. Qürurla deyə bilərik ki, bütün dövrlərdə olduğu kimi, bu gün də Naxçıvan tarixi Azərbaycan dövlətçiliyi ənənələrinin, Heydər Əliyev ideyalarının yaşadıldığı bir məkan kimi şöhrət qazanır, keçmişi ilə bu gününün vəhdətindən güc alaraq inkişafına yeni çalarlar qatır, sürətli yüksəlişi ilə dosta sevinc bəxş edir, düşmənin gözdağına çevrilir.*

**Rauf KƏNGƏRLİ**

*Jurnalistin qeydləri*

# Mən İstanbulda Naxçıvanı gördüm

*Sərlövhəni oxuyarkən, bəlkə də, mənim İstanbula getdiyimi düşünəcəksiniz. Bəli, getmişdim, ancaq cismən deyil, xəyalən... Şəhərimizdəki Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda görkəmli rəssam İbrahim Səfiyevin ecazkar, möcüzəvi əsərləri, hər birində səsli-küylü, axarlı-baxarlı İstanbulun bir görüntüsü sükuta dalan bu tablolardakı rəng zənginliyinin çalarların saysız incə keçidləri ilə yaratdığı harmoniyanın sehri məni İstanbula aparmışdı. Ruhuma hakim kəsilən bu rəngli, həm də mənalı dünya bir anlıq "Anadolu sahillərinə baxış"la, "Dənizə doğru" nəzərlə məni dənizlərə qərq etdi. İstanbulun bir-birinə bənzəyən küçələrindən birində – "Qədim küçə"də dəqiqələrlə gəzişdim, nabələdliyimdən yolu itirdim, buradan çıxa bilmədim. "Qalata qülləsi" ilə qarşılaşdım. Bu qədim türk memarlıq abidəsinin divarları arasından gələn tarixin səsi məni başqa səmtə – "Sultan Ahmed"ə yönləndirdi. Tarixin keşməkeşlərinə düşdüm. Bu sehrli aləmdən təzəcə ayrılıb, İstanbulun "Saraylar tərəfindən görünüş"ünü seyr edə-edə yenə saysız-hesabsız evlərin əhatəsində çarəsiz qaldım, geriyə yol tapa bilmədim. "Axşama doğru" sanki üzümə bir sillə çırpdı, artıq saatlardır buradasan, axşamdır, – "dedi". Ayıltdı bu sillə məni, lakin gedə bilmədim, çünki insan zəkasının, təxəyyülünün, istedadının sehrinə düşmüşdüm.*





Mən yenidən, həm də bu gözəlliklərdən doyanadək tablolara baxmaq qərarına gəldim. Sərgini bir neçə dəfə fırlandım, lakin tabloların qarşısında dayanarkən, "mən ki bunu heç görməmişəm", – deyirdim. Çünki hər baxdığımda yeni, həm də mənə tanış, doğma nə isə görürdüm, amma tapa bilmirdim. Tapa bilənə qədər inadla diqqət kəsildim və İstanbulu "canına" hopduran bu tablolarda Naxçıvanı gördüyümü hiss etdim. Öz-özümə, "bu ki açıqca görünür, saatlardır nə üçün görə bilmirəm", – dedim. Budur, "Qalata qülləsi"nə yenidən



baxıram. Bu yaxınlarda Bəhruz Kəngərli Muzeyində olarkən rəssamın Naxçıvanın keçmiş görüntüsü fonunda yaratdığı "Möminə xatın türbəsi" rəsmi canlanır gözlərim qarşısında. Nə qədər bənzər görüntülərdir. "Qonşu həyət"dəyəm, hara baxıramsa, tipik bir Naxçıvan həyəti görürəm: ev, evin quruluşu, çardağı, eyvanı, ağaclar, toyuq-cücə hini, onların həyətdə gəzişmələri… Buradan xeyli aralıda masa düzəldən bir "Usta" nın iş otağı görünür. Bu otaqda, divardan asılan əşyalarda, ustanın geyimində belə, Naxçıvana məxsusluq görürəm. Burdan "Dənizə doğru" yenə bir nəzər salıram, sahil yamaclarına aşağıdan yuxarıya doğru alçaqlı-ucalı kilidləşən evlərin toran vaxtı görüntüsündə Naxçıvan dağlarını görürəm. Yeni bir "Mənzərə" açılır qarşımda, bu, gözəl bir parkdır… ağaclar, yollar, kişilər, qadınlar, tikililər. Bu parkın eynisini mən uşaqlıqda atamla bu şəhərə gələndə görmüşdüm. "Köhnə məscid" də sanki buradakı köhnə məsciddir. Hələ "Vazada çiçəklər"ə bax, bu güllər Naxçıvanda bitən güllərin eynisidir. "Axşama doğru" qoşa minarəmizi də gördüm. Nəhayət, rəssamın ad vermədiyi "Adsız"ın qarşısında dikilib qalıram. Çox yaxından və daha diqqətlə baxıram. Çünki burada zaman axşamçağına yaxın, mənzərə uzaqdan dağın döşünə səpələnmiş evlərin, həyətlərin görüntüsüdür. Rənglər tünd və solğundur. Rəsm ancaq seçilir. Baxdıqca sanki bu "Adsız"ın adını tapıram. Məncə, bu, rəssamın xəyallarında yaşatdığı Naxçıvandır. Adını rəsmə deyil, qəlbinə həkk etdiyi Naxçıvan...

Sərgidə cəmi 53 rəsm saydım. "Niyə belə az, o ki böyük rəssam olub", – deyə öz-özümə pıçıldayıram. Elə buradaca bir neçə il bundan əvvəl İbrahim Səfiyevin yaxın dostu Naci Tərzinin respublika qəzetlərindən birinə verdiyi müsahibəsini xatırlayıram. O, jurnalistin rəssamın ailəsi ilə bağlı verdiyi sualı belə cavablandırırdı: – İbrahim Safi 1953-cü ildə – 55 yaşında ikən Zaxarina adlı yunan qadınla evləndi, qadının nəvələri vardı. Zaxarina İbrahim Safini sevən insanları xoşlamırdı, bizim onunla görüşməyimizə mane olmağa çalışırdı. Ancaq İbrahim Safi həmişə mənimlə yaxın ünsiyyətdə olurdu, hara getsə, mənə məktublar yazırdı. Zaxarina ilə arabir Afinaya gedirdilər, oradan mənə yazdığı məktubları saxlayırdım... İbrahim bəy 5 may 1983-cü ildə vəfat etdi. Ölənə qədər 100 fərdi sərgi açmışdı. O vəfat edən kimi Zaxarina ən dəyərli tablolarını Yunanıstana apardı, kiçik tablolarını isə İstanbulda satıb özü Afinaya köçdü. Nə vaxt evinə getsəydim, görürdüm ki, Safi rəsm çəkir. Türkiyənin və Avropanın rəsm bazarında ən çox tablosu olan rəssam İbrahim Safi idi. Məncə, 10 mindən çox tablo çəkib. Zaxarina onun çox gözəl tablolarını Afinaya apardı.



Bu fikirlər qəlbimdə böyük bir təəssüf hissi yaradır və sərgi salonundan ayrılıram. Bayırdakı aramsız yağış, bir də xoş payız lövhələri səhərdən bəri İbrahim Səfiyevin əsərlərinin sehrində özümün özümə suallarım məngənəsində sıxılan hafizəmi aydınlatmağa başlayır. Lakin böyük rəssamın düşündürən və kədərləndirən ömür kitabının təsirindən çıxa bilmirəm. Çox keçmir, Naci bəyin həmin müsahibəsinin ardı düşüncələrimə hakim kəsilir. Naci Tərzi: – …İbrahim Safi Türkiyəyə "rəng" anlayışını gətirmiş sənətkardır. Türk rəssamları rəngin nə olduğunu ondan sonra dərk etməyə başladılar. O həm də beynəlmiləl sənətkar idi. Biz uzun illərdən bəri Avropa Birliyinə üzv olmağa çalışırıq. İbrahim Safi isə o vaxtlar Avropa Birliyinə "daxil olmuşdu", hər il Avropa ölkələrində bir neçə sərgi açırdı. Mən indiyə qədər onun kimi alicənab, hamıya hörmətlə yanaşan, sənətinə aşiq olan bir adam görməmişəm. Türk rəsm sənəti İbrahim Safidən çox şey öyrəndi.

Müsahibə qəmgin notlarla bitirdi: – İbrahim Safi daim doğulub-böyüdüyü yerlərin xiffətini çəkirdi. Bunu hiss etdirməməyə çalışsa da, mən daim gözlərindəki nisgildən sezirdim. Məncə, İbrahim Safi bu dünyadan gözləri açıq getdi, çünki doğulub-böyüdüyü və 20 yaşında tərk etdiyi doğma yurdunu bir daha görə bilmədi. O vaxtlar dəmir pərdə vardı, Safinin öz vətəninə getməsi mümkün deyildi. Safinin doğulub-böyüdüyü yerdə onun adına muzey açılmasını, əsərlərindən bəzilərinin o muzeydə nümayiş etdirilməsini elə çox istəyirəm ki... Bu işə dəstək verilsə, mən də əlimdən gələn köməyi etməyə hazıram. Ölkəsində Safinin adına muzey və ya onun da əsərlərinin nümayiş etdirildiyi sanballı bir sərgi açılsa, mən də məmnuniyyətlə açılışda iştirak edərəm.

Bu xatırlamadan sonra anladım, nə üçün İstanbulda Naxçıvanı gördüyümü. Fırçasının hər telinə hopan Vətən, yurd sevgisi, sonsuz həsrət, bir də, təbii ki, genetik yaddaş onun əsərlərinin hər birinə doğma Naxçıvanının bir parçasını həkk etmişdi.

*Bilmirəm, Naci bəy hayatda yaşayır, ya yox. Kaş ki gələ, görə bilərdi, Naxçıvanda istedadlı insanlara, unudulmaz şəxsiyyətlərə göstərilən sayğını, yaradılan muzeyləri, açılan sərgiləri. Elə bu yaxınlarda muxtar respublika rəhbərinin İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncam görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığına, irsinə davamlı diqqətin, qayğının təzahürüdür. Sərəncamdan sonra açılan sərgilər, keçirilən tədbirlər, onun haqqında söylənən dəyərli fikirlər rəssamın ruhunu İstanbuldan Naxçıvana – doğma yurduna gətirdi. İstanbulda yaşatdığı Naxçıvana. İstanbula "köçürdüyü" Naxçıvana...*

**Mətanət MƏMMƏDOVA**

## İngilis dili ixtisasının açılmasının 20 illiyi qeyd olunub

*Naxçıvan Dövlət Universitetində İngilis dili ixtisasının açılmasının 20 illiyinə həsr olunmuş tədbir keçirilib.*



Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov 2006-cı ildə ayrıca korpusda fəaliyyətə başlayan Xarici dillər fakültəsinin 2008-ci ildən etibarən Beynəlxalq münasibətlər və xarici dillər fakültəsi adı ilə fəaliyyət göstərdiyini bildirib. Qeyd olunub ki, fakültədə İngilis dili və metodika və İngilis dili və tərcümə kafedraları fəaliyyət göstərir.

Xarici dil müəllimliyi (ingilis dili) və Tərcümə ixtisasları tələbələrinin birgə hazırladığı tədbirdə hər iki ixtisasın 20 illik fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş olunub. Sonda tələbələr ingilis dilində bədii qiraət ediblər. Həmçinin ingilis dilində Azərbaycanın xalq mahnısı "Sarı gəlin" ifa edilib və Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasından musiqili səhnəcik nümayiş olunub.

Tədbir iştirakçılarda xoş ovqat yaradıb.

**Badəm MƏMMƏDOVA**

## Görkəmli maarifçi və dilçi Məhəmməd ağa Şahtaxtlının anım günü keçirilib



***Dekabrın 10-da Şahtaxtı kəndindəki Şahtaxtinskilər Muzeyində görkəmli maarifçi və dilçi Məhəmməd ağa Şahtaxtlının anım günü ilə bağlı tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Əsədova açaraq görkəmli maarifçi və dilçi Məhəmməd ağa Şahtaxtlının Azərbaycanda maarifçiliyin inkişafında xüsusi xidmətlərindən, XX əsrin ilk Azərbaycan qəzeti – "Şərqi-Rus"un yaradıcısı olmasından danışıb.

Bildirilib ki, Məhəmməd ağa Şahtaxtlının xatirəsinin əbədiləşdirilməsi və yubileyinin qeyd edilməsi üçün son illər muxtar respublikamızda da mühüm işlər görülüb. Ali Məclis Sədrinin "Görkəmli ictimai xadim, publisist və maarifçi Məhəmməd ağa Şahtaxtlının anadan olmasının 160 illiyinin qeyd olunması və xatirəsinin əbədiləşdirilməsi haqqında" 2006-cı il 27 fevral tarixli Sərəncamından sonra böyük alimin əsərləri kitab halında nəşr olunub, xatirəsi əbədiləşdirilib.

Sonra Məhəmməd ağa Şahtaxtlının həyat və fəaliyyəti ilə bağlı çıxışlar dinlənilib.

Tədbirin sonunda muzeyin ekspozisiyasına baxış olub.

## Yeni sayt fəaliyyətə başlayıb



***Dekabrın 10-da Naxçıvan Musiqi Kollecində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin yeni www.nmn.az saytının təqdimatı olub.***

Təqdimat mərasimində nazirliyin İncəsənət və təhsil müəssisələri ilə iş şöbəsinin müdiri İman Alırzayev çıxış edərək bildirib ki, nazirlik muxtar respublikada mədəniyyət, incəsənət, tarix və mədəniyyət abidələrinin qorunması sahələrində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Nazirliyin əsasnaməsində öz fəaliyyəti ilə əhalinin məlumatlandırılması üçün internet saytının yaradılması qarşıda duran vəzifələrdən biri kimi əksini tapmışdır. Ötən dövrdə nazirliyin yeni saytı hazırlanıb.

Vurğulanıb ki, yeni saytın istifadəyə verilməsi nazirliyin fəaliyyətində olan yeniliklərin, mədəniyyət və incəsənət sahəsində həyata keçirilən tədbirlərin daha geniş və çevik işıqlandırılmasına şərait yaradacaqdır. Bu həm də mədəni dəyərlərin təbliğində əhəmiyyətli rol oynayacaqdır.

Yeni yaradılmış internet saytı 6 bölmə, 21 alt bölmə və 21 yarımbölmədən ibarətdir. Bu bölmələrdə nazirliyin strukturu, tabeliyində olan mədəniyyət müəssisələri, qədim diyarımızın tarixi-mədəni abidələri haqqında məlumatlar öz əksini tapıb.

Yeni sayt Naxçıvanın mədəniyyət tarixi, müasir mədəni inkişafı ilə bağlı istifadəçilərə hərtərəfli məlumat verəcək.

**Əli RZAYEV**

## Pensiya və müavinətlər vaxtında ödənilir

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu noyabr ayında əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmış, pensiyaçıların şəxsi hesablarına 11 milyon 485 min manat köçürülmüşdür.

Fond muxtar respublika ərazisindəki təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq, bütün hüquqi və fiziki şəxslərdən qanunvericiliyə müvafiq qaydada məcburi dövlət sosial sığorta haqlarının yığılması üçün mütəmadi olaraq işlər görmüşdür. Ötən ay fondun gəlirləri 4 milyon 479 min manat proqnoza qarşı 6 milyon 173 min manat həcmində yerinə yetirilmiş, proqnoz tapşırıqlara 137,8 faiz əməl olunmuş, nəzərdə tutulan məbləğdən 1 milyon 694 min manat çox vəsait yığılmışdır. Hesabat ayında muxtar respublikada 174 min manat işsizlik sığortası toplanılmış və qanunvericiliyə uyğun olaraq işsizlikdən sığorta fondunun hesabına köçürülmüş, pensiya hüququ yaranmış 95 vətəndaşa əmək pensiyası təyin olunmuşdur. Yeni təyin olunan pensiyaçılardan 29-u yaşa, 19-u əlilliyə, 47-si isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlar olmuşdur.

"Dövlət sosial sığorta sistemində fərdi-uçot haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq hesabat dövründə fərdi-uçot sistemində işlər davam etdirilmiş, əmək fəaliyyətinə yeni başlayan işçilərin fərdi-uçot sistemində qeydiyyata alınması və sosial sığorta şəhadətnamələri ilə təmin olunması diqqətdə saxlanmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Naxçıvan komandası “Azərbaycan intellektual birincisi” layihəsinin ölkə çempionu olub



*“İrəli” İctimai Birliyinin Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə reallaşdırdığı “Azərbaycan intellektual birincisi” layihəsinin üçüncü mövsümünə yekun vurulub.*

Gənclərin maarifləndirilməsinə istiqamətlənən layihə çərçivəsində dörd intellektual oyun – “Xəmsə”, “Nə? Harada? Nə zaman?”, “Axtar tap”, “Vətəni tanı” üzrə, ümumilikdə, ölkəmizin 70 rayonundan 1500-ə yaxın gənc iştirak edib. Layihə iki mərhələdən ibarət olub. Əvvəlcə hər iqtisadi rayon üzrə komandaların zona çempionatı, sonra isə final yarışları keçirilib. Bu mərhələdə zona turnirlərinin qalibləri mübarizə aparıblar.

Təşkil olunan yarışda Naxçıvan komandaları bütün intellektual oyunlar üzrə mübarizə aparıblar. Yekun nəticələrə əsasən komandamız “Axtar tap” intellektual oyunu üzrə Azərbaycan çempionu adını qazanıb. “Nə? Harada? Nə zaman?” və “Vətəni tanı” intellektual oyunlarında isə komandalarımız ikinci olub. “Xəmsə” milli intellektual oyunu üzrə komandamız finala qədər yüksəlsə də, burada dördüncülüklə kifayətlənib.

Qeyd edək ki, Naxçıvan komandası intellektual oyunlarda göstərdiyi nəticələrə əsasən reytinq cədvəlində ölkə üzrə 3-cü yerdə qərarlaşıb.

**Ceyhun MƏMMƏDOV**

## Bədii gimnastımız ölkə birinciliyində bürünc medal qazanıb



***Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 25-ci Azərbaycan birinciliyi və 5-ci bölgələrarası kubok yarışları keçirilib.***

Yarışlarda fərdi gimnastlar “balacalar”, “yeniyetmələr”, “gənclər” yaş kateqoriyasında, qrup hərəkətləri komandaları isə “balacalar” və “yeniyetmələr” yaş kateqoriyasında mübarizə aparıblar. İdmançılar arasında idman klubları ilə yanaşı, Sumqayıt, Qusar, Gəncə, Mingəçevir, İsmayıllı, Kürdəmir, Şirvan, Göyçay rayonlarının, həmçinin Naxçıvan Muxtar Respublikasının yetirmələri də iştirak ediblər.

Turnirin son günündə bölgələrarası kubok yarışlarında gimnastlar həm fərdi, həm də qrup hərəkətləri proqramında öz çıxışlarını hakimlərə nümayiş etdiriblər.

2007-ci il təvəllüdlü gimnastlar arasında mübarizə aparan Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən bədii gimnastika bölməsinin yetirməsi Günəş Hüseynova iki hərəkət üzrə, ümumilikdə, 12900 xal toplayıb və bürünc medal qazanıb.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom və medalla mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Bərəkətli məhsullarla bəzənən piştaxtalar

*Yazın gözü açılandan bəri hər həftənin şənbə və bazar günləri şəhərimizdəki mərkəzi bazarda əsl bayram ab-havası hökm sürür. Ötən şənbə günü də yarmarkaya məhsul çıxaran zəhmətkeşlərin hər zaman olduğu kimi çöhrələrindən təbəssüm yağırdı. Onlar tədarük etdikləri məhsulları Naxçıvan şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkasına gətirmişdilər.*



Burada hər bir bölgəmiz üçün ayrılmış bölmələrdə tanıtım lövhələri yerləşdirilib. Piştaxtalarda təravəti ilə gözoxşayan bostan, tərəvəz məhsullarının, dağlarımızın, düzlərimizin ərməğanı olan və incə zövqlə sərgilənən ələyəz, əvəlik, kəklikotu, çobanyastığı, həmərsin kimi nemətlərin xoş rayihəsini duymaq olur.

İlk olaraq Şərur rayonu üçün ayrılmış bölməyə doğru addımlayıram. Xeyli aralıdan rayonun Aralıq kənd sakini, festivallardan yaxşı tanış olan Namiq Musayevi görürəm. Onun piştaxtasındakı xüsusi zövqlə qablaşdırılan məhsullar arasında müxtəlif şəfalı bitki və meyvə quruları, turşular, süd məhsulları, müalicəvi içkilər alıcı diqqətini çəkir, eyni anda bir neçə insan həmin nemətlərdən almağa çalışır. Bir qədər gözləyirəm. Namiq Musayev alıcıları yola saldıqdan sonra onunla söhbətləşirəm. Deyir ki, cari ildə keçirilən “Ailə təsərrüfatı məhsulları” festivalında uğurla iştirak edərək məhsullarını yaxşı tanıtdıra bilib. Elə alıcı çoxluğu da bu səbəbdəndir. O, yarmarkadan könül razılığı ilə danışır:

– Hər il bahar fəsli yurdumuza qədəm qoyandan ailəliklə torpaq sahəmizə üz tutur, əkin işləri aparırıq. Yaradılan əlverişli imkanlar sayəsində keyfiyyətli və bol məhsul yetişdiririk. Hasilə gələn məhsulları da elə ilboyu təşkil olunan yarmarkalarda sataraq özümüzə güngüzəran qururuq. Mənim üçün bu ilin əkinbiçin dövrü ötən illərdəkindən daha uğurlu oldu. Həm festival, həm də yarmarkalar vasitəsilə xeyli məhsul satıb ailə büdcəmi zənginləşdirə bildim. Onu da qeyd edim ki, yarmarkaya çıxardığım məhsullar arasında dağlarımızdan, düzlərimizdən topladığımız şəfalı bitkilər də çoxdur. Belə ki, il ərzində tez-tez ailəmlə Şərur rayonunun dağətəyi zonalarına üz tutur, dərdə dərman, cana məlhəm bitkilərdən yığır, qurudaraq xüsusi paketlərdə qablaşdırırıq. Bir çox xəstəliklərin müalicəsində geniş istifadə olunan həmin bitkiləri alıcılar böyük maraqla qarşılayır, qısa müddətdə gətirdiyimiz məhsulu satıb qurtarırıq.

Piştaxtalara göz gəzdirəndə məndən bir neçə addım öndə, babəklilərin məhsul satdıqları piştaxtaların qarşısında iki nəfərin aldıqları məhsulları torbaya yığdıqlarını görürəm. Yaxınlaşıb həmsöhbət olur, yarmarka ilə bağlı təəssüratlarını öyrənirəm. Naxçıvan şəhər sakini Səlvər Baxşəliyev deyir ki, hər həftənin şənbə və bazar günləri keçirilən yarmarkaları səbirsizliklə gözləyirəm. Düzdür, dükanlarda da yaxşı məhsullar olur, oradan da alış-veriş edirəm. Ancaq yarmarkanın üstün cəhəti ondadır ki, burada yerli məhsul çeşidi bol olduğu üçün seçim imkanımız daha genişdir. Digər tərəfdən qiymət münasibliyinin olması büdcəmizə xeyli qənaət etməyimizə imkan verir. Babək rayonundan gətirilmiş pendir və xırnik aldım, dad-tamına da baxdım, çox xoşuma gəldi.

Yarmarkada Şahbuz rayonu üçün ayrılmış hissədə də məhsul çeşidlərinin bolluğu və nəfis görünüşü nəzərə çarpır. Elə buna görədir ki, rayonun torpaq adamları alıcı sıxlığından, sözün əsl mənasında, baş qaşımağa da vaxt tapa bilmirlər.

Rayonun Sələsüz kənd sakini Münəvvər Quliyevaya məxsus piştaxtada alça, tut quruları, badam, həmərsin, çaşır, cacıq, dazotu və daha neçə-neçə naz-nemət gözümə dəyir. Deyir ki, bölgəmizin ecazkar təbiəti, dövlətimizin torpaq adamlarına qayğısı bizi işimizə-gücümüzə daha sıx tellərlə bağlayır. Artıq bir neçə ildir ki, kənd təsərrüfatı məhsullarının satış yarmarkası biz əkib-becərənlərin, məhsul bolluğu yaradanların sevimli məkanına çevrilir. İndi burada haraya göz gəzdirsən, alın təri hesabına yaradılan bolluğu görə bilərsən. Mən də mütəmadi olaraq yarmarkalarda iştirak edir, yetişdirdiyim məhsulları sərfəli qiymətə satır, evimə ruzi aparıram. Yarmarkanın təşkilində əməyi keçənlərə minnətdarlığımı bildirirəm.

Artıq bəzi piştaxtalarda məhsulların qurtardığını görmək olur. Əllərində dolu torbalarla evlərinə doğru tələsən insanlar buradan razılıqla ayrılırlar. Təsərrüfatçılar isə şən əhval-ruhiyyədə deyə-gülə boşalmış kisələrini bir yerə toplayır, ortalığı səliqə-sahmana salaraq öz obalarına qayıdırlar. Gedirlər ki, gələn həftə yenə belə bol məhsullarla qayıda bilsinlər. Mən də bu zəhmət adamlarına belə ruzi-bərəkətlə dolu xoş günlər arzulayır, növbəti kənd təsərrüfatı məhsullarının satış yarmarkasında görüşmək ümidiylə oradan ayrılıram.

Həmin gün məhsul yarmarkasında muxtar respublikanın emal və istehsal müəssisələrinin məhsulları da özünə yer almışdı. Belə məhsullara da tələbat çox idi.

Məlumat üçün qeyd edim ki, 18 istehsal müəssisəsinin də iştirak etdiyi növbəti yarmarkaya, ümumilikdə,168 çeşiddə 26 tona yaxın məhsul çıxarılmışdı.

**Nail ƏSGƏROV**

## Naxçıvan Dövlət Universiteti

### *2018-2019-cu tədris ilinin payız imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır*

1. Universitetin Qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil daxil olmaqla) payız imtahan sessiyası 3 yanvar 2019-cu il tarixdən başlayır və 20 iş günü davam edir.
2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

**REKTORLUQ**

## “Naxçıvan” Universiteti

### *Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2018-ci il tarixli 774 s nömrəli sərəncamına uyğun olaraq 2018-ci il üçün fəlsəfə doktoru proqramları üzrə doktorantura və dissertanturaya qəbul elan edir*

***Doktoranturaya (ödənişli əsaslarla)***

1. 5308.01 Ümumi iqtisadiyyat – 1 yer
2. 5311.01 Müəssisələrin təşkili və idarə olunması – 1 yer
3. 5401.01 İqtisadi coğrafiya – 1 yer
4. 5718.01 Dünya ədəbiyyatı – 1 yer

***Dissertanturaya (ödənişli əsaslarla)***

1. 1204.01 Həndəsə – 1 yer
2. 2417.01 Botanika – 2 yer
3. 3338.01 Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi – 2 yer
4. 5311.01 Müəssisələrin təşkili və idarə olunması – 2 yer
5. 5401.01 İqtisadi coğrafiya – 1 yer
6. 5718.01 Dünya ədəbiyyatı – 1 yer
7. 5801.01 Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) – 2 yer
8. 5804.01 Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 3 yer
9. 5807.01 Etnopedaqogika – 1 yer

Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, dissertantlıq yolu ilə təhkim olunma müddəti 4 ildir.

Doktoranturaya və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*- “Naxçıvan” Universiteti rektorunun adına ərizə;*
*- kadrların şəxsi-qeydiyyat vərəqi;*
*- tərcümeyi-hal;*
*- 4 ədəd fotoşəkil (3x4 santimetr ölçüdə);*
*- iş yerindən xasiyyətnamə;*
*- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
*- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və ona əlavənin müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);*
*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Sənədlər 2018-ci il dekabrın 17-dən 2019-cu il yanvarın 15-dək qəbul edilir.

Doktoranturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsilin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.

Qəbul imtahanları 2019-cu il yanvarın 16-dan 30-dək keçiriləcəkdir.

Dissertanturaya qəbul müsahibə yolu ilə aparılır.

***Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi, “Naxçıvan” Universiteti şəhərciyi***
***Əlaqə telefonu: (036) 545-07-45***

## Naxçıvan Muxtar Respublikası üzrə 10 dekabr 2018-ci il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 3353,4 | 3124,0 | 229,4 |
| 2. | Babək rayonu | 9476,0 | 7205,0 | 2271,0 |
| 3. | Ordubad rayonu | 1501,0 | 760,0 | 741,0 |
| 4. | Culfa rayonu | 6040,0 | 5092,0 | 948,0 |
| 5. | Kəngərli rayonu | 4726,0 | 2850,0 | 1876,0 |
| 6. | Şahbuz rayonu | 1268,0 | 1245,0 | 23,0 |
| 7. | Sədərək rayonu | 1867,0 | 1436,0 | 431,0 |
| 8. | Naxçıvan şəhəri | 881,5 | 736,0 | 145,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **29112,9** | **22448,0** | **6664,9** |

### *İtmişdir*

Naxçıvan şəhəri, Firdovsi küçəsi 162-də yaşamış Məmmədov Fətulla Cabbar oğlunun adına olan 2493 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Şirzadov Yusif Aydın oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 892